Azərbaycan Respublikası
Nazirlər Kabinetinin 2025-ci il
“ 20 ” fevral tarixli
37 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

**Xidmət təminatçıları tərəfindən göstərilən hava limanları xidmətlərinə və aeronaviqasiya xidmətlərinə görə yığımların məbləğinin hesablanması**

**QAYDASI**

## 1. Ümumi müddəalar

1.1. Bu Qayda “Aviasiya haqqında” Azərbaycan Respublikası Qanununun 9.3-cü maddəsinə uyğun olaraq hazırlanmışdır və xidmət təminatçıları tərəfindən göstərilən hava limanları xidmətlərinə və aeronaviqasiya xidmətlərinə görə yığımların məbləğinin hesablanması ilə bağlı tələbləri müəyyən edir.

1.2. Bu Qayda “Aviasiya haqqında” Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə, Beynəlxalq Mülki Aviasiya Təşkilatının beynəlxalq standartlarına və tövsiyə olunan təcrübəsinə, həmçinin “Doc 9082, hava limanları xidmətləri və aeronaviqasiya xidmətləri üçün yığımlar üzrə Beynəlxalq Mülki Aviasiya Təşkilatının siyasəti” sənədinə uyğun olaraq hazırlanmışdır.

1.3. Bu Qayda ilə tənzimlənməyən məsələlər bu Qaydanın 1.2-ci bəndi ilə müəyyən olunmuş sənədlərin tələblərinə uyğun həyata keçirilir.

1.4. Bu Qaydanın məqsədləri üçün hava limanları xidmətləri dedikdə, hava gəmilərinin qəbulu və yola salınması, eləcə də hava daşımalarının həyata keçirilməsi zamanı göstərilən və bu Qaydanın 6-cı hissəsində qeyd olunan xidmətlər nəzərdə tutulur.

1.5. Bu Qaydada istifadə olunan anlayışlar “Aviasiya haqqında” Azərbaycan Respublikasının Qanunu ilə və digər normativ hüquqi aktlarla müəyyənləşdirilmiş mənaları ifadə edir.

## 2. Aeronaviqasiya xidmətlərinin növləri

2.1. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə başqa qayda nəzərdə tutulmamışdırsa, xidmət təminatçıları tərəfindən göstərilən aeronaviqasiya xidmətlərinin aşağıdakı növləri vardır:

2.1.1. Azərbaycan Respublikasının hava məkanından tranzit keçməklə həyata keçirilən beynəlxalq uçuşlar üzrə aeronaviqasiya xidmətləri;

2.1.2. beynəlxalq hava daşımaları üzrə hava gəmilərinin Azərbaycan Respublikasının ərazisində yerləşən hava limanına enməsi və ya qalxması üçün həyata keçirilən aeronaviqasiya xidmətləri;

2.1.3. daxili hava daşıması üzrə aeronaviqasiya xidmətləri.

2.2. Aeronaviqasiya xidmətlərinə görə yığımların məbləği həyata keçirilən hər bir uçuş üçün hesablanır.

## 3. Azərbaycan Respublikasının hava məkanından tranzit keçməklə həyata keçirilən beynəlxalq uçuşlara görə göstərilən aeronaviqasiya xidmətləri üzrə yığımların məbləğinin hesablanması

3.1. Azərbaycan Respublikasının hava məkanından tranzit keçməklə həyata keçirilən beynəlxalq uçuşlara görə göstərilən aeronaviqasiya xidmətləri üzrə yığımların məbləği ($Y_{tr}$) aşağıdakı düstura əsasən hesablanır:

$Y_{tr} = M_ə/100 \times T_{tr}$

3.1.1. tranzit məsafə əmsalı ($M_ə$) - aeronaviqasiya xidmətlərinin göstərildiyi zonaya giriş nöqtəsi ilə aeronaviqasiya xidmətlərinin göstərildiyi zonadan çıxış nöqtəsi arasındakı ortodromiya üzrə məsafəni 100-ə bölməklə hesablanır. Tranzit məsafə əmsalı hesablanarkən məsafə ölçüsü yuvarlaqlaşdırılır (məsələn: 101-149 km məsafə yuvarlaqlaşdırılaraq 100 km məsafə kimi, 150-199 km məsafə isə 200 km kimi hesablanır);

3.1.2. çəki əmsalı (Ç) - uçuş həyata keçirilən hava gəmisinin sertifikatlaşdırılmış maksimum uçuş çəkisi əsasında hesablanır. Hava gəmisinin çəkisi məlum olmadıqda çəki əmsalı mövcud eyni tipli ən ağır çəkili hava gəmisinin çəkisi əsasında hesablanır. Hava gəmisinin bir neçə sertifikatlaşdırılmış maksimum uçuş çəkisi olduqda, çəki əmsalı ən yüksək maksimum uçuş çəkisi əsasında müəyyən edilməlidir. Çəki əmsalı hesablanarkən tonlar yuvarlaqlaşdırılır (məsələn: 1.1-1.49 ton çəki yuvarlaqlaşdırılaraq 1 ton çəki kimi, 1.50-1.99 ton çəki isə 2 ton kimi hesablanır);

3.1.3. tranzit tarifi ($T_{tr}$) - xidmət təminatçısının xərcləri (aeronaviqasiya infrastrukturunun inkişafı xərcləri daxil olmaqla) və Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyinin (bundan sonra - Agentlik) uçuşların təhlükəsizliyinə dövlət nəzarəti ilə bağlı xərcləri (“Aviasiya haqqında” Azərbaycan Respublikası Qanununun 9.2-ci maddəsinə uyğun olaraq) nəzərə alınmaqla və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmaqla, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən təsdiq edilir. Tranzit tarifi çəki əmsalına (Ç) uyğun olaraq aşağıdakı aralıqlar ilə təyin edilir:

3.1.3.1. 50 tona qədər;
3.1.3.2. 51 – 100 ton;
3.1.3.3. 101 – 200 ton;
3.1.3.4. 201 – 300 ton;
3.1.3.5. 301 – 400 ton;
3.1.3.6. 401 – 500 ton;
3.1.3.7. 501 ton və daha yuxarı.

3.2. Tranzit məsafə əmsalı hesablanarkən aeronaviqasiya xidmətlərinin göstərildiyi zona üzrə ümumi məsafədən 20 km (hava gəmisinin qalxması və enməsi üçün qət etdiyi məsafə qismində) çıxılır.

## 4. Beynəlxalq hava daşımaları üzrə hava gəmilərinin Azərbaycan Respublikasının ərazisində yerləşən hava limanına enməsi və ya qalxması üçün həyata keçirilən aeronaviqasiya xidmətlərinə görə yığımların məbləğinin hesablanması

4.1. Beynəlxalq hava daşımaları zamanı hava gəmilərinin Azərbaycan Respublikasının hava limanına enmə və qalxma əməliyyatlarına görə aeronaviqasiya xidmətlərinin göstərilməsi üzrə yığımların məbləği ($Y_m$) hər bir hava gəmisi üzrə həmin hava gəmisinin çəkisi nəzərə alınmaqla aşağıdakı düstura əsasən hesablanır:

$Y_m = Ç \times T_{eq}$ ;

4.1.1. çəki əmsalı (Ç) bu Qaydanın 3.1.2-ci yarımbəndinə uyğun olaraq hesablanır;

4.1.2. enmə (qalxma) tarifi ($T_{eq}$) - xidmət təminatçısının xərcləri (aeronaviqasiya infrastrukturunun inkişafı xərcləri daxil olmaqla) və uçuşların təhlükəsizliyinə dövlət nəzarəti ilə bağlı Agentliyin xərcləri ("Aviasiya haqqında" Azərbaycan Respublikası Qanununun 9.2-ci maddəsinə uyğun olaraq) nəzərə alınmaqla, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmaqla Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən təsdiq edilir.

4.2. Yığım hava gəmisinin uçub qalxmasından sonra hesablanaraq bir dəfə tətbiq edilir.

## 5. Daxili hava daşıması üzrə aeronaviqasiya xidmətlərinə görə yığımların məbləğinin hesablanması

Daxili hava daşıması üzrə aeronaviqasiya xidmətlərinə görə yığımların məbləği bu Qaydanın 4-cü hissəsinə uyğun olaraq hesablanır.

## 6. Xidmət təminatçıları tərəfindən göstərilən hava limanları xidmətlərinə görə yığımların məbləğinin hesablanması

6.1. Xidmət təminatçıları tərəfindən göstərilən hava limanları xidmətlərinə görə aşağıdakı yığımlar alınır:

6.1.1. enmə (qalxma) xidmətlərinin göstərilməsinə görə yığımların məbləği ($Y_{eqx}$) hava gəmisinin bu Qaydanın 3.1.2-ci yarımbəndində qeyd edilən uçuş çəkisi ($M_{uç}$) və hava gəmisinin sertifikatlaşdırılmış maksimum uçuş çəkisinin bir tonuna görə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmaqla Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən təsdiq edilən tarif ($T_{eqx}$) nəzərə alınaraq aşağıdakı düstura əsasən hesablanır:

$Y_{eqx} = M_{uç} \times T_{eqx}$;

6.1.2. hava gəmisinin parklanmasına görə yığımların məbləği:

6.1.2.1. kommersiya hava daşımaları üzrə hava gəmisinin parklanmasına görə yığımların məbləği aşağıda müəyyən edilmiş şərtlər və hava gəmisinin bu Qaydanın 3.1.2-ci yarımbəndində qeyd edilən uçuş çəkisi nəzərə alınmaqla Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmaqla, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən təsdiq edilən tariflər əsasında hesablanır:

6.1.2.1.1. parklanma vaxtı 2 (iki) saat və ya daha az olduqda hava gəmisinin parklanmasına görə yığımlar tətbiq edilmir;

6.1.2.1.2. müntəzəm uçuş həyata keçirən hava gəmisinin bu Qaydanın 6.1.2.1.1-ci yarımbəndində göstərilən müddətdən artıq parklanmasına görə hər növbəti 15 (on beş) dəqiqə (V) üçün Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmaqla, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən müəyyən edilən tariflər ($T_m$) əsasında yığımlar alınır və 15 (on beş) dəqiqədən az olan parklanma vaxtı 15 (on beş) dəqiqəyə yuvarlaqlaşdırılaraq yığımların məbləği ($Y_{mp}$) aşağıdakı düstura əsasən hesablanır:

$Y_{mp} = V \times T_m$;

6.1.2.1.3. qeyri-müntəzəm (çarter) uçuş həyata keçirən hava gəmisinin bu Qaydanın 6.1.2.1.1-ci yarımbəndində göstərilən müddətdən artıq parklanmasına görə yığımların məbləği ($Y_{qmp}$) hər növbəti 6 (altı) saatlıq (V) parklanma üçün tariflər ($T_{qm}$) əsasında aşağıdakı düsturla hesablanır və 30 (otuz) dəqiqədən artıq olan parklanma vaxtı 6 (altı) saatlıq müddətə yuvarlaqlaşdırılır:

$Y_{qmp} = V \times T_{qm}$;

6.1.2.2. ümumi xarakterli aviasiya fəaliyyəti ilə əlaqədar uçuşlar üzrə hava gəmisinin parklanması ilk 3 (üç) saat ödənişsizdir. Bu müddət bitdikdən sonra hava gəmisinin parklanmasına görə yığımların məbləği ($Y_{üp}$) hər növbəti 6 (altı) saatlıq müddət (V) üzrə və hava gəmisinin bu Qaydanın 3.1.2-ci yarımbəndində qeyd edilən uçuş çəkisi nəzərə alınmaqla Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmaqla, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən müəyyən edilən tariflər ($T_{üp}$) nəzərə alınaraq, 30 (otuz) dəqiqədən artıq olan parklanma vaxtı 6 (altı) saatlıq müddətə yuvarlaqlaşdırılaraq aşağıdakı düstura əsasən hesablanır:

$Y_{üp} = V \times T_{üp}$;

6.1.3. hava limanlarının terminallarından istifadə üzrə sərnişin xidmətləri ilə bağlı yığımların məbləği ($Y_{sx}$) aşağıdakı düstura əsasən əvvəlki təqvim ili ərzində sərnişin xidmətlərinin göstərilməsinə görə çəkilən xərclərin cəminin (X) həmin ildə hava limanından yola salınan 2 (iki) yaşından yuxarı sərnişinlərin ümumi sayına (S) bölünməsi ilə müəyyən edilir:

$Y_{sx} = X / S$;

6.1.4. aviasiya təhlükəsizliyinin təmin edilməsi üzrə yığımların məbləği ($Y_{at}$):

6.1.4.1. sərnişinlərin və onların baqajlarının təhlükəsizlik yoxlamasının həyata keçirilməsi xidməti üzrə yığımların məbləği bu Qaydanın 6.1.3-cü yarımbəndi ilə müəyyən edilmiş düstur əsasında müəyyənləşdirilir;

6.1.4.2. aviasiya təhlükəsizliyinin təmin edilməsi xidməti üçün yığımların məbləği hava gəmisinin bu Qaydanın 3.1.2-ci yarımbəndində qeyd edilən uçuş çəkisi ($M_{uç}$) ilə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmaqla, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən hər ton çəkiyə münasibətdə vaxt (saat) intervalı üzrə aşağıdakı istiqamətlərlə müəyyən edilən tariflər ($T_i$) və düstur əsasında hesablanır:

$Y_{at} = M_{üç} \times Ti$;

6.1.4.2.1. sərnişin daşıması üzrə;
6.1.4.2.2. sərnişin və yük daşıması (birləşmiş) üzrə;
6.1.4.2.3. yük daşıması üzrə;
6.1.4.3. hava gəmisinin xüsusi (fərdi) mühafizəsi üzrə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmaqla, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən bu Qaydanın 6.1.4.2-ci yarımbəndi ilə müəyyən edilən istiqamətlər üzrə təsdiq edilən tariflərə ($T_{xm}$) uyğun olaraq xidmətin həyata keçirildiyi hər bir 1 (bir) saatlıq müddət (M) əsasında hesablanan yığımların məbləği ($Y_{xm}$) aşağıdakı düsturla hesablanır:

$Y_{xm} = M \times T_{xm}$;

6.1.4.4. hava gəmisinin texniki enmə (qalxma) zamanı təhlükəsizliyinin təmin edilməsi xidməti üzrə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmaqla, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən bu Qaydanın 6.1.4.2-ci yarımbəndi ilə müəyyən edilən istiqamətlər üzrə hər 3 (üç) saat intervalına münasibətdə təsdiq edilən tariflərə ($T_{teq}$) uyğun olaraq xidmətin həyata keçirildiyi faktiki vaxt (saat) intervalı ($M_f$) əsasında hesablanan yığımların məbləği ($Y_{teq}$) aşağıdakı düsturla müəyyən edilir:

$Y_{teq} = M_f \times T_{teq}$;

6.1.4.5. hava limanının fəaliyyətinin inkişafının təmin edilməsi üzrə yığımların məbləği hava limanından yola salınan 2 (iki) yaşından yuxarı hər bir sərnişin (S) üçün Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmaqla, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən təsdiq edilən tariflərə ($T_s$) uyğun olaraq yığımların məbləği ($Y_{fi}$) aşağıdakı düsturla hesablanır:

$Y_{fi} = S \times T_s$.

6.2. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmaqla, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən təsdiq edilən tariflər xidmət təminatçılarının bütün xərcləri (hava daşımaları infrastrukturunun inkişafı xərcləri daxil olmaqla) nəzərə alınmaqla müəyyən edilir.
6.3. Parklanma vaxtı hava gəmisinin enişə başladığı zaman başlayır və hava gəmisinin qalxmağa başladığı anda bitir.

6.4. İstifadə edilməyən xidmətlərə görə yığımların tətbiq edilməsinə yol verilmir.

## 7. Güzəştlər

7.1. Aşağıdakı hallarda aeronaviqasiya xidmətlərinə görə yığımlar tutulmur:

7.1.1. axtarış və xilasetmə işlərinin həyata keçirilməsi üzrə uçuşların yerinə yetirilməsi;

7.1.2. hava gəmisində yaranmış texniki problemlə bağlı məcburi eniş edilməsi;

7.1.3. məşq uçuşlarının yerinə yetirilməsi;

7.1.4. hava limanı və aeronaviqasiyanın texniki sistemlərinin yoxlanılması üzrə uçuşların yerinə yetirilməsi;

7.1.5. yola düşmə (enmə) hava limanında və ya uçuş trayektoriyası boyunca pis hava şəraitinin hökm sürməsi;

7.1.6. mülki aviasiya təhlükəsizliyinə təhdid yaradan fövqəladə halların baş verməsi.

7.2. Aşağıdakı hallarda hava limanı xidmətlərinə görə yığımlar tutulmur:

7.2.1. Birləşmiş Millətlər Təşkilatı və Beynəlxalq Qırmızı Xaç Komitəsi üçün uçuşları həyata keçirən, habelə Azərbaycan Respublikasına humanitar yardımla bağlı gələn daşıyıcılara enmə (qalxma) və parklanma xidmətlərinin göstərilməsi;

7.2.2. axtarış və xilasetmə işlərini həyata keçirən hava gəmilərinə enmə (qalxma) və parklanma xidmətlərinin göstərilməsi;

7.2.3. başqa heç bir hava limanında eniş etmədən yola düşdüyü hava limanına geri qayıdan hava gəmilərinə enmə (qalxma) və parklanma xidmətlərinin göstərilməsi;

7.2.4. yola düşmə (enmə) hava limanında və ya uçuş trayektoriyası boyunca pis hava şəraitinin hökm sürməsi və ya mülki aviasiya təhlükəsizliyinə təhdid yaradan fövqəladə halların baş verməsinə görə hava gəmisinin yola düşməsi gecikdikdə gecikmə müddəti ərzində parklanma xidmətlərinin göstərilməsi;

7.2.5. aviasiya insidenti nəticəsində hava gəmisində yaranmış texniki problemlə bağlı təcili eniş etməli olan və ya yola düşməsi gecikən hava gəmisi, texniki problemin aradan qaldırılması üçün tələb olunan müddət ərzində parklanma xidmətlərinin göstərilməsi.